# Məslək adamı

*Qulu müəllim mənim üçün böyük mənəvi gücü olan, bizim reallıqda istedadla şəxsiyyəti birləşdirə bilmiş çox az ləyaqətli adamlardan biridir.*

**Müəllif.**

İlk görüşümüz onun Azərbaycan televiziyasının «Səhər» proqramına rəhbərlik etdiyi illərə təsadüf edir. Bu illər ərzində mənim Qulu Məhərrəmliyə olan münasibətim yüksələn xətt üzrə daha da inkişaf edib. AzTV-dəki mənəvi mühitin mürəkkəbliyinə baxmayaraq o, bütöv şəxsiyyətini, kamilliyini, həyat prinsiplərini və dəyərlərə münasibətini zədələmədən saxlaya bilmişdi. Yaşadığımız bu çətin dövrdə taleyimizdən keçən illər, sağdan-soldan əsən küləklər onu dəyişə bilməmişdi. Qulu müəllim bu əsən küləklərə deyil, daim öz iç dünyasının hökmünə tabe olub, müstəqil düşüncələrini dilə gətirib, ona görə də ləyaqətini, ziyalı simasını qoruyub saxlaya bilib. Ekranda da, həyatda da həmişə öz dəst-xətti ilə seçilib. Əsl peşəkarlar, hansı sahədə çalışırlarsa-çalışsınlar, fərqi yoxdur, onlar məhz bu cür olurlar. Ona görə də belə insanlar mənim üçün ən yüksək hörmətə və ehtirama layiqdirlər.

Qulu müəllim peşəkar televiziyaçıdır, bu sahənin incəliklərini dərindən bilir. Bu səbəbdən də Qulu Məhərrəmli kimi mütəxəssislərlə işləmək adama zövq verir. Onun AzTV-də hazırladığı və apardığı maraqlı verilişlər, verdiyi siyasi şərhlər, kütləvi tədbirlərdən apardığı canlı reportajlar indi də çoxlarının yadındadır. Onun xeyli sənədli filmləri də var və mən həmin ekran əsərlərində, o cümlədən Həsən bəy Zərdabi haqqında filmdə kadrarxası mətn oxumuşam. Qulu müəllim sənədli filmin estetikasını, görüntünün dilini, sözü, intonasiyanı əla duyur. Bilməyənlər üçün deyim ki, Qulu Məhərrəmli həm də dublyaj işinin gözəl bilicisidir. Mən onun rəhbərlik etdiyi hərəsi 20-25 seriya olan iki məşhur İran filminin azərbaycancaya dublyajında iştirak etmişəm və bu adamın işə peşəkar münasibətindən zövq almışam. Qulu müəllimlə dostluq etməyin, yol yoldaşı olmağın isə tamam başqa dadı var. O, iliyinə qədər səmimi olan çox nadir adamlardan biridir.

Əlbəttə, Qulu Məhərrəmli, mənim üçün ilk növbədə böyük ziyalı və məslək adamıdır. O, cəmiyyətdə söz sahibidir, ən çətin şəraitdə belə əqidəsini qoruyaraq həqiqəti deməyə çalışır. Yalnız möhkəm iradə sahibləri çətin mühitdə əqidələrinə sadiq qalır, axına düşməyib öz yolları ilə gedir və büdrəmirlər. Onlar öz qərarlarına cavabdeh olmağı bacarırlar, ən böyük gücləri də elə bundadır. Peşəkar jurnalist, müəllim və alim, filologiya elmləri doktoru, professor Qulu Məhərrəmli məhz belə ziyalılarımızdandır. Məncə, cəmiyyəti irəli aparan, mənəviyyatı diri saxlayan da məhz belə insanlardır.



***Fuad POLADOV,***

***Xalq artisti,***

***"Ziyalı missiyası" (2015) kitabından.***

Kredo 2019.- 1 noyabr.- S.4.